ELLƏR, İLLƏR

CƏMİLƏ

Sən günəşə boylanan
bir çiçəksən, Cəmilə,
bir çiçəksən...
Bu "təqsirin" ucundan
öləcəksən, Cəmilə,
öləcəksən...
Əsir görmək, qul görmək
istəmirsən vətəni,
Bu "təqsirin" ucundan
öldürəcəklər səni.
Ömrün baharındasan,
iyirmi iki yaşın var,
Min arzuyla yaşayır
iyirmi iki yaşlılar.
Zərif işlər yaraşır
o zərif əllərinə,
Səhər-səhər şeh qonur
bağçada güllərinə...
Çiçəklərə su tökmək,
saz çalmaq incə-incə,
İlk sevda məktubunu
yazıb pozmaq gizlincə.
Səndən kiçik bacının
saçlarını daramaq,
O nazik əllərinə
bunlar yaraşır ancaq...
Sənin cəllad yapışmış
o incə biləyindən,

O qoparmaq istəyir
atəşin ürəyindən
azadlığın eşqini.
Başını gilyatinlə
kəsib atmaq istəyir,
Vətəninə, anana
qan ağlatmaq istəyir.
Çiçəklərə su vermək,
saz çalmaq incə-incə,
Şer yazmaq, söz qoşmaq
sevdiyinə gizlincə
İyirmi iki yaşlıların
bəzəyi, zinətidir.
Bu gün sənin qismətin
Zoyanın qismətidir.
Əsir görmək, qul görmək
istəmirsən vətəni,
Bu "təqsirin" ucundan
öldürəcəklər səni.
Anaların qəlbində,
yanır nifrət odları,
Bir qəzəblə çırpınır
dünyanın şah damarı,
Dayandırmaq əzmilə
o qansızı, Cəmilə!
Qarayanız, ərəb qızı Cəmilə!
İradən mətindir, Cəmilə,
mətindir...
Vətəndə qul olmaq
çətindir, Cəmilə,
çətindir...
Uzaq-uzaq bir diyarda
xəyalının dünyası var,
Uçub gedir o diyara
qəlbindəki xoş arzular,
Orda azad nəfəs alır
Yaşıl düzlər, göy təpələr.

Orda cansız torpaqlar da
zəhmət ilə cana gəlir.
İnsan yeni bir həyatı
həm yüksəldir, həm yüksəlir...
Sən o şirin bir diyarın
yaşayırsan xəyalıyla
Yuxuların dolur onun
azad, böyük cəlalıyla.
Sən günəşə boylanan
bir çiçəksən, Cəmilə,
bir çiçəksən.
Bu "təqsirin" ucundan
öləcəksən, Cəmilə,
öləcəksən.
Əsrlərin zülmətindən
baş qaldırır Şərq əlləri.
Azadlığın bayrağını
ucaldırsan, Şərq dilbəri.
Haqq yolunda mübarizə
şüarıyla çıxdın yola,
Ərəb qızı, bu əzmində
sənə min-min uğur ola!
Sənə cəllad bıçağını qaldıranlar,
saf qanına susayan o ac canavar
Qoy eşitsin, bilsin, ancaq
qanlı bıçaq,
qanlı bıçaq.
Öz bağrına saplanacaq!...

1964

AYRILIQ

Aşıq Hüseyn Cavana nəzirə

Mən ki doymamışdım heç vüsalından,
Mənə zülm elədi yaman ayrılıq.
Nə olardı bir gün durub yuxudan
Görəydim ki, olub yalan ayrılıq...

Biz ki bir ruh idik iki bədəndə,
O gülüb sevinsə gülərdim mən də,
Vüsalın bülbülü uçub gedəndə,
Daş kimi qəlbimdə qalan ayrılıq.

Kim qıydı dostların bahar əlinə?
Mehriban sözünə, şirin dilinə,
Cananın sazını alıb əlinə
Əğyar mizrabıyla çalan ayrılıq.

Mən görəndə orda yaz səhəriydi,
Xoş nəfəs baharın küləkləriydi,
Açılan ağ badam çiçəkləriydi,
İndi onlardımı solan, ayrılıq!

Gün çıxar, dağların əriyər qarı,
Pozulmaz dostların əhdi, ilqarı,
Keçər ürək dərdi, könül qubarı,
Gəl etmə meydanda cövlan, ayrılıq!

SƏKKİZ ON BEŞ

Ağır matəm sükutu içində
susur insanlar.
Susur yer,
susur göy,
susur dəli ruzigar.
Bir neçə an içində
yanıb külə dönən
İki yüz min nəfərin
faciəsinə
matəm sükutu içində
Baş əyir dünya.
Sevinçləri ayrı,
dərdi-qəmi bir dünya,
Vətənimin elçisi
Azərbaycan qızı

Sükut içində əyir başını,
görən olmur onun
Qəzəbindən qurumuş göz yaşını.
Şehli güllər o gün
həyat eşqilə
Baş qaldırmışdı torpaqdan.
Qızlar, gəlinlər
Səhər ehşilə
çıxmışdı otaqdan.
Bahar eşqilə oyanmışdı səhər.
Bahar eşqilə
qızarmışdı üfüqlər.
Həyat
bahar eşqilə
səslənirdi bu dəm,
Arzular,
xəyallar dünyasında
Çiçəklənirdi aləm.
Səkkiz on beşdə başlandı bu yerin faciəsi.
Səkkiz on beşdə qalxdı ərşə
Torpağın naləsi.
Göydən yerə
od yağırdı,
Alov püskürürdü torpaq.
Bir an içində
iki yüz min insanın yerində
Quru bir kül qaldı ancaq.
Yer ağladı,
göy ağladı.
Qarışdı insan müsibətinə
təbiətin fəryadı.
Bir an içində
məhv oldu həyatda,
həyatın nemətləri də.
İnsan arzuları,
insan niyyətləri də.
Yer yandı,

Göy də yandı.
Elmin bu müdhiş
ixtirasının səsinə
Yatmış vicdanlar oyandı.
Atom bombası
darmadağın etdi
Təqsirsiz, günahsız insanların
isti ocağını.
Viran qoydu
həyat eşqilə
çırpınanların növrağını.
Körpələr qırıldı,
qocalar qırıldı.
Yaşayan, nəfəs alan
hər nə var, qırıldı.
Diksindi dünyanın vicdanı,
yeni bir lərzəyə saldı
Atom bombası
qanlı divarlar içində
boğulan dünyanı.
İndi o illərdən
çox il keçib,
Bu yerdən də
nəsil gəlib, nəsil keçib.
Dünyanın hər yerindən
elçilər gəlir Xirosimaya.
Toplaşır bu yerə,
Elə bil o müdhiş faciənin
Müsibətini yenidən duyur hərə.
Səkkiz on beşdə
sükut edirlər,
Əyirlər başlarını
ağır matəm içində.
Ürəklər ağrıyır
sonsuz bir qəm içində.
Birləşir əllər,
bükülür yumruqlar.

Sadə zəhmətkeş insanların
qabarlı əlləri
Lənət yağdırır zülmətə, alqışlayır səhəri.
Səkkiz on beşdə
birləşib sükut edir xalqlar.
Bir də bu matəm sükutunu yaradan
faciələr olmasın deyə.
Dostluq bağçasında açılan
çiçəklər
saralıb solmasın deyə.

BƏŞƏR OĞLU

Nazim Hikmətin əziz xatirəsinə

Ölümün bizi
Elə yandırdı,
Elə yandırdı ki, qardaş,
Nə deməyə dilim gəlir,
Nə yazmağa əlim gəlir...
Bu dərdin ağırlığına
Çiynini verməsəydi xalqlar,
Biz bu qəm yükünü
Çəkə bilməzdik.
Ağlamasaydı səni
Dünyanın anaları,
Bir dərya göz yaşı
Tökə bilməzdik.
Səni qürbətdə deyil,
Sürgünlərdə deyil,
Arzularının dünyasında –
Sevdiyin şəhərdə basdırdılar.
Tabutunun başında
Millətləri, xalqları
Qardaş gördüm;
Rus qızının, ərəb şairinin,
Alman kommunistinin
Gözündə yaş gördüm.

İşıqlıydı arzun, niyyətin.
İnsan idin,
Oğlu idin böyük bəşəriyyətin.
Quruyan budağın,
Şikəst heyvanın,
Sönən ulduzun
Kədərini duyurdun.
İnsanın qəmini
Hamıdan əvvəl.
Sevdiyin, halına yandığın
İnsanların arasından
Qopardı səni amansız əcəl.
Şəkər belə yeyə bilməyən
Ölü uşaqların
Halına yanırdın.
Xarabalıqlar altından
Canlanıb qalxa bilməyən
Baharın halına yanırdın.
Yandın... Kərəm kimi yandın.
Yaxşı adamları dost bildin,
Qardaş sandın.
İstədin insan fənalığını
Yox eləmək.
Əzilən bəşəriyyət üçün
Döyünürdü sinəndəki
Böyük ürək.
Ümidin, arzun
İnsanlara bağlı idi.
Yaralı ürəyin
Vəzən həsrətli,
Hicran dağlı idi.
İndi sevdiyin, məhəbbətlə baxdığın
Gözlər ağlayır,
İllərlə həsrətini çəkdiyin
Balaca oğlun Məmməd ağlayır.
Anaların ən gözəli –
Münəvvər ağlayır.

Əzilib tapdalananların,
Ümidsizlərin, çarəsizlərin dostu,
İşləyib, dişləməyənlərin dostu,
İşığın, Günəşin həmdəmi,
Niyə rəva gördün bizə
Dağ boyda ağırlığı olan bu matəmi?
Yaxınlaşdı sənə, qardaş,
Böyük qaranlıq,
Qoyub getdin işığı insanlara,
Yazıb-yaratdığın əsərlərinlə
Qarışdın əbədi bahara.

İMA SUMAK

Gah şehli gül üstə
cəh-cəh vuran bülbül oldun,
Gah sıldırım qayalarda
vüqarlı qartal,
Gah çöllər sultanı
qaragözlü maral;
Gah dağlardan şırıl-şırıl axan
büllur bulaq oldun.
Gah küləkdə yırğalanan
yaşıl yarpaqlı budaq oldun.
Yamsıladın quşların, suların dilini,
ağacların, böcəklərin,
rüzgarın dilini.
Səsində meşələr səltənəti
həzin bir nəğməylə dilə gəldi.
Təbiətin rəngləri, ahəngləri
bir qadın sinəsindən yüksəldi.
Günəşə alqış dedin,
lənət dedin zülmətə.
Təzim etdin, ehtiram göstərdin
elindəki hər sevimli adətə.

Susuzluqdan
cadar-cadar olanda torpaq,
Həzin bir ana yalvarışıyla
göylərdən yağmur dilədin,
Duydun zəlzələni, fəlakəti
hamıdan qabaq,
Elin dərdiylə, kədəriylə inlədin.
Nur şəlaləsi kimi
çağladı məhəbbətin;
Uzaq eldən gələn qonaq,
incədir, şairanədir
sənətin.
Sənətkarsan!
Elin dərdinə yana-yana
ağlayırsan,
İnsanların ürəyini
nəğmələrinlə dağlayırsan.
İncə nəğməli gözəl,
şirin, məzəli gözəl,
Dilini anlayıram,
Vətənini, elini anlayıram.
Azadlıq nəğmələri
hər yerdə bir dildədir.
Azadlıq arzuları
uzaq-yaxın çox eldədir.
Qovuşsun azadlığa
dili dustaq,
eli dustaq,
nəğmələri əsir olanlar.
Gələcək bir gün
həsrətini çəkdiyin
Şəfəqləri əlvan geyimli bahar.
Nəğmələr əsir olmayacaq,
kəsəcək səsini hicran tərənələri,
Dünyanın hər yerində yüksələcək
Azadlıq nəğmələri ancaq.

DOLORES İBARRURİ

Mən səni heç görmədim,
Eşitmədim səsini.
Bəs nədəndir
öz doğma anam kimi
yaşayırsan xəyalımda gecə-gündüz?!
Bəs nədəndir
səni mənə xatırladır
Susuz yanan
hər çöl, hər düz?!
Sən yaralı Madridin
yanğınlardan
Gecələri gündüz olan
sinəsində...
Azadlıqçün öz ömrünü qurban verən
igidlərin sədasıdır
Guruldayan gur səsində!..
Yanır Madrid!
Yanır İspaniya!
Güllələr odu bir kələf kimi
dolaşanda havada,
Eşitdim ki, İbarruri,
Sən bağrına silah basıb
Vuruşursan davada...
Dizlərində yaralı bir əsgərin başı,
Quruyur kinindən gözünün yaşı...
Onun can verən dodaqları
Çəkir adını:
İbarruri, İbarruri,
Dodağında sönüb qalan
bir təbəssüm,
Sənin böyük qüvvətinə bir inamdır,
Öz ömründən o günəşli sabahlara
Körpü quran
bir əsgərə,

Ölüm yoxdur! Bu – yalandır!
Mən sənin lə görüşmədim,
Qəlbimdəki sənə aid qürurumu
bölüşmədim,
İbarruri, İbarruri,
dolaşır səngərləri
bir zəfər bayrağı kimi
adın sənin!..
Dağlara köks gərən
bir qranit qayadır,
inadın sənin!..
Mən sənin lə danışmadım,
Gözlərinə baxaraq
bir doyunca danışmadım...
Ey ellərin doğma qızı,
İbarruri!...
Heç sönərmi al günəşin
böyük nuru,
Yer üzündə parlayırkən
Səni yaşadan əməl?!
Söylə sənə ölüm varmı –
Qalib gəlmədən əvvəl?!
Dolores!..
Adını tanıyır hər kəs.
Qaragözlü Madridin
yaxasından,
ölüm asan
Cəlladlara qarşı daşır
kinin sənin,
Bu qəhrəman günlərində
silahındır dilin sənin,
Görürsənmi, İbarruri,
Əməlinin şahididir, –
Sənə dostluq duyğusuyla
Uzadılan bu milyon əl.

Səni bizə sevdirən
bax, bu duyğu, bax, bu əməl,
Aramızdakı bütün
böyük sədləri aşır.
Sən mərd dayan, İbarruri,
Sənə mərdlik yaraşır!

NATƏVAN KLUBUNDA ƏDƏBİ GECƏ

Mən bu gecə çıxmıram
Şairlər kürsüsünə.
Dal cərgədə oturub
Yalnız qulaq asıram,
Bu gecənin şerini
əzbər deyib ürəkdə,
yavaş-yavaş
könlümün
varağına yazıram...
Yeni yazan bir cavan
Budur kürsüyə qalxır,
Utancaq nəzərləri
Bir an salona baxır.
Sonra rəvan bir təbləə
Gəlir ürəyi dilə,
Səsi titrəyir bir an,
Şer oxuyur ucadan
Günəş, bahar eşqinə!
Gənclik, qüvvət, gələcək
Səslənir hər sözündə,
Mən sabahı görürəm
Onun xoşbəxt üzündə.
Bir fars qızı – şairə
Sonra kürsüyə qalxır,
Şerinin ahəngilə
Bizi heyran buraxır.

Oxuyur aram-aram,
Sağ qoluna yaslanır.
Elə bil ki bir anlıq
Kirpikləri islanır!
Başa düşməsəm də mən
Onun zərif dilini,
Bilirəm ki, anaraq
Uzaq, doğma elini
O öz bədbəxt yurdunun
Dərdlərindən danışır.
Xalqın müsibətindən,
Hünərindən danışır...
Ağ qarlara bürünmüş
Sakit şimal axşamı
Başqa bir şair qızın
Olmuş könül ilhamı...
Sarısaçlı, göygözlü
Bir şairə – rus qızı,
Şux ahəngli şerilə
Oxşayır ruhumuzu.
Onun şeri səlisdir,
Qüssəli deyil səsi.
Böyük, igid bir xalqın
Nəfəsidir, nəfəsi...
Öz şerilə çağırır
O, sülhü qorumağa,
O, sülh üçün qaldırır
Anaları ayağa.
Bir şair də bu ara,
Koreyaya od vurub,
Yandıran cəlladlara
Nifrət sözüylə qalxır –
Gözündə şimşək çaxır.
O qalxır bir təmkinlə,
Gözlərində qəzəblə,
Ürəyində bir kinlə:
– Son qoyulsun bu haqsız

Ölümlərə, qanlara!
Bir millətin başında
Gurlayan tufanlara.
Axmasın körpələrin
Yanağına göz yaşı...
Onun odlu sözləri
Əridir dağı-daşı.
O atəşli şairin
Şeri gücdür, qüvvətdir,
Hər misrası poladdır,
Qaynar, coşqun həyatdır!
Mən bu gecə çıxmıram
Şairlər kürsüsünə,
Dal cərgədə oturub,
Yalnız qulaq asıram.
Bu gecənin şerini
Əzbər deyib ürəkdə,
Sakit-sakit
Könlümün varağına yazıram!

AMERİKA TÖHFƏLƏRİ

"Amerika mədənidir,
insansevər bir ölkədir,
Böyüklərə, uşaqlara
az olmayır töhfələri!.."
Sevindirmək həvəsinə
düşmüş bu gün
"Mərhəmətli" Amerika
Koreyada körpələri.
Partlayıcı maddələrlə
doldurараq
Koreyalı körpələrə
bəxş eləyir min "oyuncaq".
Viran qalmış
məskənlərin üzərində

Amerikanın dolaşır, bax,
qanlıqanad bayquşları.
Gah aşağı enir onlar,
Gah da qalxır dik yuxarı.
Bomba atmır, qəribədir,
Süzür, quzğun kimi süzür,
Böyüklər də, körpələr də
Bir maraqla baxır göyə,
Ürəkləri bir intizar, qorxu üzür...
Təyyarələr ötür keçir
Qatar-qatar, dəstə-dəstə,
Əlvan-əlvan "oyuncaqlar"
Səpələyir yerin üstə.
Odur, göydən bomba deyil,
Baxın, baxın, nələr yağır?
Əlvan, qəşəng, yaraşıqlı
"Oyuncaqlar" ağır-ağır enir yerə.
"Hədiyyədir!"
Amerikalı ağalardan
koreyalı körpələrə!
Aman körpə,
İnanma sən yankilərin hiyləsinə!
Badamgözlü, yaxın durma
Sən onların "töhfəsinə!"
Əzmək, didmək, parçalamaq
Arzusuyla yaşayanlar
İnsanların xoş gününə
Verə bilməz bil ki, qərar.
Qan tökməkçün yarananlar
Sevindirə bilərmi heç
insanları?
Viran qoyur
Onlar gözəl bir diyarı!
Onlar ölüm carçısıdır
Qulaq versən bəd səsinə.
Badamgözlüm, yaxın durma
Cəlladların "töhfəsinə!".

ANA MƏHƏBBƏTİ

VƏTƏN DUYĞULARI

Bakıdan beş gün ayrılanda
yuxuma Xəzər girir.
Sarı qumlu sahillərdə çırpınan
gümüş telli ləpələr girir.
Abşeronun boz, yanıq çölləri
girir yuxularıma,
Anasıyçün ağlayan
körpə uşaq kimi ağlardım
qoysaydılar məni
öz ixtiyarıma.

Dənizdə boylu çinar kimi yüksələn
Tənha buruğun təklik
qəmini düşünürəm.
Eybi yoxdur, deyirəm,
çoxafarsınız yaxın zamanda.
Təklik çətin olur
Həm şad gündə,
həm tufanda...
Alagözlü gəlin Göygölümü
düşünürəm.

Yuxularıma Hacıkəndin
palıd meşələri girir.
Gəncliyim Xaçbulaq yaylağında
sarı çiçək dərir.
Dağlarım, dərələrim, çöllərim var,
Salxım-salxım yasəmənim,
çəmən-çəmən güllərim var.
Zənginlərdən zənginəm,

Dalğalı bir dənizəm,
Buludsuz bir ənginəm.
Anam bircə qız gətirdi dünyaya
Lakin tək olmadım
bircə an da.
Tək olmadım nə xoş gündə,
nə tufanda.
Qardaşlarım var –
yüz-yüz
igid ürəkli qəhrəman.
Bacılarım var –
saf dilekli, mehriban.
Ayağımın altında –
neft ətirli torpağım,
Başımın üstündə ulduzlu göylərim.
Sularında doya-doya çimdiyim,
məxmər örtüklü Xəzərim.
Bir udum vətən suyuna,
Bir ovuc vətən torpağına
Həsrət olanları düşünürəm.
Vətəndən ayrı düşüb,
Qürbətdə qalanları düşünürəm.
Çətindir vətənsiz, elsiz olmaq,
Ağırdır nəğməsiz, dilsiz olmaq,
Doğma, şirin nəğmələrimi
dəyişmərəm bu dünyanın
dövlətinə, malına.
Dəyişmərəm dost təbəssümünü
Dünyanın cah-cəlalına.

XƏZƏR NEFTÇİSİNƏ

Fərhad dağ çapdı
Şirin eşqinə.
Məcnun biyabana düşdü
Ahu gözlərin eşqinə,